BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2010

# XIX ƏSRİN SONLARINDA "BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYI"NIN STRUKTURUNA DAİR

**P.R.XƏLİLOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Rufatya@rambler.ru*

*Neft sənayesində kapitalist münasibətlərinin inkişaf etməsi dövrünü əhatə edən mövzunun tədqiq olunması həm sosial-siyasi, həm də iqtisadi nöqteyi-nəzərdən öz aktuallığı ilə seçilir. Mövzunun tədqiq olunmasında qarşıya qoyulan əsas məqsəd həmin dövrdə yaranmış "Bakı neft sənayeçiləri qurultayı" təşkilatının ali hakimiyyət dairələrinin mənafeyinə uyğun olaraq həyata keçirdiyi idarəedicilik fəaliyyətini və həmin fəaliyyətdən asılı olaraq təşkilatın daxilində baş verən müxtəlif prosesləri araşdırmaqdır.*

Tədqiq olunan mövzu xüsusi tədqiqat obyekti olmadığına görə, indiyə qədər həmin mövzuya dair ayrıca bir əsər yazılmamışdır. Lakin bir sıra müəlliflərin əsərlərində (1; 9; 11; 18; 26) göstərilən mövzuya aid müxtəlif səpkili məlumat və qeydlərə rast gəlmək olar. Həmin əsərlər içərisində E.Muradəliyevanın əsəri xüsusi olaraq diqqəti cəlb edir. Digər əsərlərdən fərqli olaraq müəllifin əsərində göstərilən məlumat və qeydlər daha geniş məzmunda əks etdirilib.

Mövzunun təhlilinə keçməzdən əvvəl, Bakı neft sənayesinin kapitalist inkişafı mərhələsinə daxil olması prosesini göstərmək vacibdir. Məhz həmin proses sahə sahibkarlıq təşkilatı -"Bakı neft sənayeçiləri qurultayı"nın yaranmasının əsas amilini təşkil etmişdir.

1872-ci ildə iltizam sisteminin ləğv olunması Bakı neft sənayesinin kapitalist inkişafı mərhələsinə daxil olmasına geniş yol açdı. Həmin tədbirin həyata keçirilməsi neft sənayesinə iri kapitalist axınının sərbəst yol açmasına səbəb oldu (2, 63). Əgər 1872-ci ildə Bakı neft rayonunda 1,4 milyon pud neft istehsal olunmuşdusa, 1875-ci ildə həmin rəqəm 5,4 milyon puda, 1885-ci ildə isə 115,0 milyon puda qədər artdı (7, 87).

Qeyd edək ki, hələ 1883-cü ildə dövlət əmlak nazırı M.N.Ostrovski neft işi ilə tanış olmaq məqsədilə Bakıya baş çəkmişdi (9, 59). Dövlət əmlak naziri həmin səfəri zamanı neft sənayeçiləri tərəfindən irəli sürülən vaxtaşırı qurultayların çağırılması barədəki müraciətlərini təqdirəlayiq hal kimi qiymətləndirmişdi (9, 60).

Bakı neft sənayeçilərinin ərizə və müraciətləri əsasında dövlət əmlak naziri M.N.Ostrovski tərəfindən himayə edilmiş qurultayların çağırılmasına Nazirlər Komitəsi tərəfindən 1884-cü ilin 24 yanvar tarixində icazə verildi (10, 663). Neft sənayeçiləri qurultayı hər növbəti qurultaydan əvvəl Qafqaz mülki hissəsinin baş rəisi ilə razılığa gəlib, dövlət əmlak nazirinə qurultayın çağırılması barədə müraciət edirdi. Dövlət əmlak naziri həmin müraciətə cavab olaraq qurultayın keçirilməsi yerini və vaxtını təyin edirdi. Eyni zamanda, qurultayın sədri də dövlət əmlak naziri tərəfindən

təyin olunurdu (23, 1). Nazirlər Komitəsini neft sənayeçiləri qurultaylarının çağırıl-ması barədə tərtib etdiyi "Əsasnamə"si 1884-cü il fevralın 3-də çar tərəfindən təsdiq olundu (23, 1).

Beləliklə, Nazirlər Komitəsi "Əsasnamə"nin çar tərəfindən təsdiq olunmasına müvafiq olaraq 1884-cü ildə "Bakı neft sənayeçiləri qurultayı" təsis olundu və elə həmin il təşkilatın I qurultayı keçirildi. Neft sənayeçiləri qurultayının yaranması ilə əlaqədar həmin təşkilatın qurultaylarında müzakirə olunan məsələlərin işlənib hazır-lanaraq, müvafiq inzibati idarəçilik orqanlarına təqdim olunması, komissiya və komitələr tərəfindən qurultaylara təqdim olunan layihələrin yoxlanılması və digər vəzifələrin yerinə yetirilməsi səlahiyyətinə malik olan daimi icraçı orqanın yaranması zəruriliyi meydana çıxmışdı.

Yuxarıda göstərilənlərə uyğun olaraq neft sənayeçilərinin 1885-ci ildə keçirilən II qurultayında "Qurultay Şurasının, onun vəzifəli şəxslərinin hüquq və vəzifələri qaydaları" layihəsi qurultay tərəfindən qəbul olundu. Həmin qaydalara görə, neft sə-nayeçilərinin hər növbəti qurultayında qurultay şurası seçilirdi. Həmin şurada fəaliy-yət göstərən vəzifəli şəxslərin sayı qurultayın qərarına müvafiq olaraq müəyyənləş-dirilirdi (25, 62).

Qurultay Şurasının sədri və digər üzvləri öz vəzifələrini pulsuz icra etdiklərinə görə, iqtisadi maraqları baxımından bütün günlərini həmin şuranın kontorunda keçirmirdilər (19, 15). Müxtəlif komissiyalar, komitələr, hökumət idarələri və digər qurumlarla mövcud olan münasibətlər bilavasitə qurultay Şurasının İşlər İdarəsi tərəfindən tənzimlənirdi. Qurultay Şurasının vəzifəsi isə hər bir icra olunmuş işə görə sərf olunan xərcləri öz imzası ilə təsdiq etməklə məhdudlaşırdı (19, 14).

Neft sənayeçiləri qurultayının "Əsasnamə"sinə müvafiq olaraq qurultaylarda hər hansı bir məsələnin müzakirə olunmasına ehtiyacları olan neft sənayeçiləri həmin məsələyə dair qurultay Şurasına ərizə ilə birlikdə izahat vərəqəsi də təqdim edirdilər. Əgər izahat vərəqəsində 5 nəfərdən az olmamaq şərti ilə neft sənayeçilərinin imzası olardısa, o zaman həmin məsələ qurultay Şurası tərəfindən növbəti qurultayın fəa-liyyət proqramına daxil edilirdi (12).

Bakı neft sənayesinin ildən-ilə inkişaf etməsi ilə əlaqədar olaraq neft sənayesi barədə məlumatların daha geniş proqramla xüsusi bir orqanda dərc olunması zəru-riliyi yaranırdı. Qurultay Şurası həmin dövri orqanın dərc olunması məsələsini neft sənayeçilərinin növbəti qurultayının müzakirəsinə təqdim etməyi labüd saydı (14, 122). Neft sənayeçilərinin 1897-ci ildə keçirilən XI qurultayında "Neftyanoye delo" jurnalının qurultay Şurası tərəfindən layihələşdirilmiş proqramı qəbul olundu (22, 140). 1899-cu ildə "Neftyanoye delo" jurnalının işıq üzü görməsi ilə əlaqədar olaraq Bakı neft sənayesi barədə ayrı-ayrı aylıq statistik xəbərlərin dərc olunması dayan-dırılırdı və statistik büro tərəfindən toplanılmış bütün statistika materialları jurnalın çapdan çıxan nömrələrində nəşr olunmağa başladı (5, 45).

Yuxarıdakı məlumatlardan aydın olur ki, qurultay Şurasının neft sənayesinə dair statistik məlumatların toplanması sahəsindəki fəaliyyəti ildən-ilə təkmilləşərək neft sənayesinin xaricdəki vəziyyətini də öz nəşr orqanlarında əks etdirirdi. Bu amil neft sənayeçilərinə öz iqtisadi fəaliyyətlərini həyata keçirmək üçün mühüm şərait ya-radırdı. Neft sənayeçilərinin neftin istehsalı, ixracı və satış bazarındakı qiyməti barədə məlumatlarla müntəzəm surətdə tanış olması onların əvvəlcədən öz işlərini nizama salmalarına imkan verirdi. Qeyd edək ki, yuxarıda göstərilən statistik büro qurultay və

onun Şurasının kargüzarlıq işlərinə də baxırdı (25, 64).

Qurultay Şurasının büdcəsinə daxil olan smeta gəlirləri aşağıda göstərilən sahələrdən toplanırdı: neftin hər puduna görə tutulan məcburi vergi; suvarma kanallarında yığılıb qalmış neftin toplanaraq satılması; qurultay apteklərində dərmanların satışı; qurultay xəstəxanalarında kənar şəxslərin müalicə olunması; mədənlərdəki Kür suyunun satışı; "Neftyanoye delo" jurnalının abunəçilərindən, elanlarından daxil olan məbləğ və digər müxtəlif sahələrdən yığılan gəlirlər (6, 8).

Neft sənayeçiləri qurultayının fəaliyyət dairəsinin genişlənməsi ilə əlaqədar olaraq həmin təşkilatın icra etdiyi işlər Bakı neft rayonundan kənar olan əraziləri də əhatə edirdi. Neft sənayesinə aid olan hər hansı bir məsələnin qısa müddət ərzində həyata keçirilməsi üçün neft sənayeçiləri qurultayı ilə hökumət idarələri arasında mövcud olan münasibətlərin tənzimlənməsi prosesini həyata keçirən orqanın təsis olunması zəruriliyi yaranırdı.

Yuxarıda göstərilənlərə müvafiq olaraq neft sənayeçilərinin 1890-cı ildə keçirilən VII qurultayında qurultay Şurasının Peterburq şəhərində daimi ödənişli nümayəndəliyinin təsis olunması məsələsi müzakirəyə qoyuldu (24, 66).

Qurultayın həmin vəzifəyə kimi seçəcəyi məsələsinə gəldikdə isə, qeyd olunmalıdır ki, həmin şəxs neft sənayesinin inkişaf tarixini, istehsalın bütün növlərinin dəyərini bilməli və xarici bazarlardakı vəziyyətlə yaxından tanış olmalı idi. Həmin keyfiyyətləri özündə birləşdirən şəxs neft sənayeçisi E.L.Nobel idi (3, f.389, siy.1, iş 22, v.40).

Beləliklə, neft sənayeçilərinin 1892-ci ildə keçirilən VIII qurultayında E.L.Nobel qurultay Şurasının Peterburq şəhərindəki nümayəndəsi seçildi (3, f.389, siy.1, iş 22, v.40-arxa). Lakin o zaman nə qurultay Şurasının tərkibində, nə də həmin şuranın Peterburq şəhərindəki nümayəndəliyində cari məsələlərə dair tədbirləri işləyib hazırlayan hüquqşünas-məsləhətçinin olmaması, hökumət idarələrinə, nazirliklərə zəruri və əsaslı məlumatları təqdim edən büronun istisnalıq təşkil etməsi E.L.Nobelin daha da qənaətbəxş surətdə fəaliyyət göstərməsinə mane olurdu (16). Bununla bərabər, qeyd etmək lazımdır ki, E.L.Nobel iri firma nümayəndəsi olduğuna görə, xırda firmaların mənafeyini qorumaq baxımından uzun müddət fəaliyyət göstərə bilməzdi (20, 201).

Yuxarıda göstərilən amillərə görə, E.L.Nobel qurultay Şurasının Peterburq şəhərində nümayəndəsi vəzifəsini aparmaqdan imtina etdi (21, 123). Qurultay Şurasının 1895-ci ilin yanvar ayında keçirilən növbəti iclasında neft sənayeçisi M.İ.Lazarev həmin şuranın Peterburq şəhərindəki nümayəndəsi seçilsə də (8), həmin vəzifəni icra etməkdən imtina etdi və 1899-cu ilin yanvar ayında N.N.İznar yuxarıda göstərilən vəzifəyə təyin olundu (15, 50).

Qeyd edək ki, qurultay Şurasının Peterburq şəhərindəki nümayəndəliyinin saxlanılması üçün sərf olunan xərc smeta xərclərindən artıq qalan məbləğin hesabına ödənilirdi. Yəni faktiki olaraq, həmin nümayəndənin fəaliyyət göstərməsində "könüllülük" prinsipi əsas rol oynayırdı (8).

Neft sənayeçiləri qurultayının yaranmasından sonra ilk 4-5 il ərzində həmin təşkilat neft sənayeçilərinin olduqca geniş dairələrinin maraqlarını əks etdirirdi. Neft sənayeçilərinin 1884 və 1885-ci illərdə keçirilən ilk iki qurultayında hələ senz məhdudiyyəti tətbiq olunmadığına görə, iri neft sənayeçiləri ilə bərabər olaraq xırda və orta neft sənayeçiləri də bütün məsələlərin müzakirə olunaraq həll olunması pro-

sesində fəal surətdə iştirak edirdilər (11, 43). Həmçinin II qurultayda seçilmiş dəmir yolu komissiyasının və yeni təsis olunmuş qurultay Şurası üzvlərinin əksəriyyətini həmin firmaların nümayəndələri təşkil edirdi. Bu cür vəziyyət iri firmaların maraqlarına zidd idi və həmin firmaların nümayəndələri hələ neft sənayeçilərinin II qurultayında qurultay senzlərinin tətbiq olunması məsələsini irəli sürmüşdülər (10, s.677).

Neft sənayeçilərinin 1887-ci ildə keçirilən IV qurultayında iri firmaların nümayəndələri senzin təyin olunması məsələsində xırda firmalara qarşı çıxaraq qurultayda iştirak etməkdən imtina etdilər (9, 64).

İri firmaların nümayəndələrinin yuxarıda göstərilən səylərinin nəticəsi olaraq neft sənayeçilərinin 1889-cu ildə keçirilən V qurultayında qəbul edilmiş "Əsasnamə"yə müvafiq olaraq senz sistemi tətbiq olundu. Həmin senz sisteminə görə, firmaların qurultaylarda təmsil olunan nümayəndələrinin səslərin miqdarına malik olması neftin hasilatı, emalı və daşınmasının ölçülərinə əsasən təyin olunurdu (4, 213). Beləliklə, neft sənayeçiləri qurultayı təşkilatı neft-sənaye burjuaziyasının, xüsusilə onun inhisarçı yuxarı təbəqəsinini təşkilatı cəhətdən birləşməsi və dövlət aparatı ilə əlaqə yaratması üçün mühüm vasitə oldu (4, 214).

Beləliklə, neft sənayeçiləri qurultayının istənilən fəaliyyət növündə həlledici rol iri firmalara məxsus idi (1, 96) və həmin təşkilat faktiki olaraq göstərilən firmaların təsiri və nəzarəti altında idi (1, 97).

Yuxarıda göstərilən müddət ərzində qurultay Şurasının fəaliyyəti müvafiq məsələlərə dair hökumət dairələri qarşısında vəsatət qaldırmaq və statistik cədvəllərlə məcmuələri nəşr etdirməkdən ibarət olmuşdur (13).

Qurultayın yaranmasının ilk illərində onun fəaliyyətinin məhdud xarakter daşımasının səbəbi o idi ki, həmin təşkilat kifayət qədər mədaxil xərclərinə malik deyildi. Belə bir şəraitdə inzibati-təsərrüfat sahəsində fəaliyyət göstərmək çətinliklərlə qarşılaşırdı.

Digər tərəfdən isə göstərilən müddət ərzində neftin hər puduna görə tutulan məcburi vergi hələ tətbiq olunmadığına görə, qurultayın xəzinəsinə yalnız firmalar tərəfindən ödənilən "könüllü" vergilər daxil olurdu. Həmin vergilərin miqdarı ildə 15.000 rubldan artıq olmurdu. Belə bir vəsaitlə iri mədən-zavod rayonunun ümumi təsərrüfat ehtiyaclarını ödəmək mümkün deyildi (17, 1).

Yuxarıda göstərilənlərə uyğun olaraq neftin hər puduna görə tutulan məcburi verginin tətbiq olunması ideyası yarandı və həmin məsələ Qurultay Şurası tərəfindən neft sənayeçilərinin VII (1890) və VIII (1892) qurultaylarında müzakirəyə təqdim olundu. Qurultay iştirakçılarının əlbir fəaliyyəti nəticəsində həmin tədbir 1893-cü il mayın 1-dən etibarən həyata keçirildi və həmin tarixdən başlayaraq nefin hər puduna görə tutulan məcburi verginin miqdarı hər puda görə 1/20 qəpik həcmində tətbiq olundu (17, 2).

Məcburi verginin tətbiq olunması ilə əlaqədar olaraq qurultayın fəaliyyət dairəsi kəskin surətdə genişlənməyə başladı. Həmin verginin təyin olunması ilə qurultay Şurasının fəaliyyət dairəsinə yolların çəkilməsi, xəstəxana və məktəblərin təşkil olunması, mədənlərin qurudulması və işıqlandırılması, eyni zamanda, digər təsərrüfat işləri də daxil oldu (18, 78).

Tədqiq olunan dövrdə neft sənayesinin inkişafı üçün zəruri olan tələbatlar o qədər çox idi ki, yuxarıda göstərilən vergi rüsumunun təyin olunması da həlli vacib olan məsələlərin həyata keçməsinə kifayət qədər təsir göstərmirdi (17, 2).

Həmçinin smeta xərclərinin yüksək templə artması qurultayın gəlirlərinin də artmasını tələb edirdi. Bu məqsədə də yalnız neftin hər puduna görə tutulan məcburi verginin miqdarının qaldırılması yolu ilə nail olmaq mümkün idi. Bunun müqabilində həmin vergi rüsumu 1897-ci ildə neftin hər puduna görə 1/10 qəpiyə qədər, 1900-cü ildə isə 1/5 qəpiyə qədər qaldırıldı (17, 6).

Beləliklə, neftin hər puduna görə tutulan məcburi vergini tətbiq olunması ilə əlaqədar olaraq neft sənayeçiləri qurultayının xəzinəsinə daxil olan smeta gəlirləri ildən-ilə artmağa başladı. Bunun nəticəsi kimi təşkilat müvəkkillik funksiyasını icra etməklə yanaşı, inzibati-təsərrüfat sahəsinə də diqqqət yetirməyə başladı (11, 42).

Beləliklə, sonda bu nəticəyə gəlmək olar ki, neft sənayeçiləri qurultaylarında senz sisteminin tətbiq olunması və neftin hər puduna görə tutulan məcburi verginin təyin olunması tədbirləri "Bakı neft sənayeçiləri qurultayı"nın strukturunun dəyişikliyə məruz qalmasına səbəb olmuşdur. Əgər birinci tədbirin həyata keçirilməsi neft sənayeçiləri qurultaylarında bütün imtiyazların iri neft sənayeçilərinin ixtiyarına keçməsinə şərait yaratdısa, ikinci tədbirin həyata keçirilməsi qurultayın fəaliyyət dairəsinin genişlənməsinə səbəb oldu.

Neft sənayeçiləri qurultayının fəaliyyəti əsasən iqtisadi maraqlara əsaslanaraq, nef-sənaye burjuaziyanın inhisarçı yuxarı təbəqəsinin mənafeyinə xidmət etmişdir. Həmin siyasətun nəticəsi olaraq, qurultayın fəaliyyətini icra edən komitə və komissiyaların işində bəzi anlaşılmazlıqlar müşahidə olunmuşdu.

Neft sənayeçiləri qurultayının yalnız öz iqtisadi mənafeyini güdmək baxımından fəaliyyət göstərməsi neft sənayesinin qısa müddət ərzində texniki cəhətdən təkmilləşdirilməsinə mane olurdu. Bunun müqabilində mədənlərdə, neft istehsalı və emalı müəssisələrində çalışan fəhlələr bədbəxt hadisələrlə üzləşir, şikəstlik və ölüm hallarının sayı artırdı.

Neft sənayesində kapitalist münasibətlərinin inkişaf etməsi ilə əlaqədar olaraq istehsalın və kapitalın təmərküzləşməsi prosesi neft sənayeçiləri qurultayında yuxarıda göstərən senz sisteminin tətbiq olunmasına təsir göstərən əsas amillərdən idi.

## ƏDƏBİYYAT


1. Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. М.: Социально-Экономическая Литература, 1959, 296 с.
2. Ахундов Б.Ю. Развитие бакинской нефтяной промышленности после отмены откупной системы // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Bakı, №10, oktyabr 1949, Azərbaycan SSR EA, s. 50-67.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA) f.389
4. Azərbaycan tarixi. 7 cilddə, IV c. (XIX əsr). Bakı: Elm, 2000, 456 s.
5. Хозяйственная деятельность Совета. Отчет о деятельности Совета, избранного на XIII съезде нефтепромышленников. Баку: Типография А. Г. Юзбашева, 1900, с.1-52.
6. Хозяйственная деятельность Совета. Отчет о деятельности Совета XVI очередному съезду нефтепромышленников. Баку: Типография 1-го Типографского Т-ва, 1901, с.1-40
7. İsmayılov M., İbrahimov M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı: Elm, 1991, 284 s.
8. Газета «Каспий», 29-е января, 1895, №24.
9. Гулишамбаров С.И. Обзор фабрик и заводов бакинской губернии. Тифлис: Типография канцелярии Главноначальствующего гражданской частью на Кавказе, 1890, 345 с.
10. Монополистический капитал в нефтяной промышленности России (1883-1914). До-

кументы и материалы. М.-Л.: Академия Наук СССР, 1961, 796 с.
11. Мурадалиева Э. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, 256 с.
12. Журнал Нефтяное дело, 1901, №15, с.10-15.
13. Новая роль Совета съезда нефтепромышленников. Газета «Каспий», 1893, 14-е июля, №151.
14. Отчет о деятельности Совета, избранного на X съезде нефтепромышленников. Баку: Типография «Арорь», 1897, 149 с.
15. Отчет о деятельности Совета, избранного на XII съезде нефтепромышленников. Баку, Типография А. Г. Юзбашева, 1899, 80 с.
16. Отсутствие представительство нефтепромышленности. Газета «Каспий», 1893, 21-е августа, № 182.
17. Реорганизация деятельности Совета съезда нефтепромышленников. – Труды XXVI экстренного съезда нефтепромышленников в гор. Баку (23-26 июня 1908 года). Баку: Типография Первого Типографского Товарищества, 1908, с.1-27.
18. Старцев Г.Е. Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку: Типография «Арорь», 1901, 92 с.
19. Труды X очередного съезда нефтепромышленников в г.Баку (с 20 апреля по 2 мая 1896 года). Баку: Типография «Арорь», 1896, 300 с.
20. Труды IX очередного съезда нефтепромышленников в г.Баку (с 24 октября по 12 ноября 1894 года). Баку: Типографии: газ. «Каспий», «Арорь» и Губернская, 1894, 414 с.
21. Труды XII очередного съезда нефтепромышленников в г.Баку (с 21 апреля по 5 мая 1898 года). Баку: Типография «Арорь», 1898, 335 с.
22. Труды XI очередного съезда нефтепромышленников в г.Баку (с 21 апреля по 2 мая 1897 года). Баку: Типография «Арорь», 1897, 290 с.
23. Труды I съезда нефтепромышленников в гор.Баку (с 26-го октября по 8-е ноября 1884 года). Баку: Типография - Скоропечатня В. Неручева, 1885, 440 с.
24. Труды VII очередного съезда нефтепромышленников в гор.Баку (с 29-го сентября по 7-е октября 1890 года). Баку: Типография газ. «Каспий», 1890, 144 с.
25. Труды II съезда нефтепромышленников в гор. Баку (с 15-го марта по 9-е апреля 1885 года). Тифлис: Типография Я. И. Либермана, 1887, 180 с.
26. Vəzirov S.Ə., İsayev A.S. Bakı neft sənayesi (Təkamül tarixi, yeni faktlar, rəqəmlər). Bakı: Elm, 1998, 70 s.

## К ВОПРОСУ О СТРУКТУРЕ «СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ» В КОНЦЕ XIX ВЕКА

**Н.Р.ХАЛИЛОВ**

### РЕЗЮМЕ

В статье нашли отражение процессы, происходившие в структуре «Съезда бакинских нефтепромышленников», образованной в последней четверти XIX века., факт доминирования крупных фирм в деятельности этой структуры. Здесь освещены также вопросы представительской функции «Съезда бакинских нефтепромышленников» перед соответствующими правительственными учреждениями и его административно-хозяйственной деятельности после введения обязательного налога – попудного сбора.

## ABOUT THE STRUCTURE OF "CONGRESS OF BAKU PETROLEUM PRODUCERS" AT THE END OF XIX CENTURY

**P.R.KHALILOV**

**SUMMARY**

The presented article reflects the processes in the structure of "Congress of Baku petroleum producers" at the end of XIX century, and the dominating companies in the activity of its structure. The author elucidates the adminstrative functions of "Congress of Baku Petroleum producers" before the relevant governmental enterprises and its administrative-economical activity after applying the compulsory tax.